MÜƏLLİMLƏRİ YAXŞI OLAN XALQA ZAVAL YOXDUR!
Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı
AZƏRBAYCAN MÜƏLLİMİ

"AZƏRBAYCAN MÜƏLLİMİ" QƏZETİNİN BAŞ REDAKTORU VALEH MİRZƏYƏ

Mən iki ilə yaxın müddətdə Azərbaycandan kənarda hem elmi-pedaqoji, hem de musiqi sahəsində iş mənəgü olduğum üçün hörmet bəslədiyim və 30 il müddətinde onlarca meqalələrle çıxış etdiyim "Azərbaycan müəllimi" qezetinde derc olunan materiallardan xeberim olmayıb. Bu yaxınlarda öz yaradıcılığı işlərimin, elmi kitablarımın seçilərəq tərcimə edilmesi və nəşrile alaqedar yerinden Vetene qayıtmışam. Qayıdışım da uğurlu olub. Bele ki, "Ölin cibinde olsun" (librettosu A.Babayevin) musiqili komediyam 2002-ci il aprelin 5-de, yə'ni ad günümde tamaşaya qoyulub, ondan artıq yeni mahnım lente köçürülüb. "Maarif" nəşriyyatı respublika tarixinde ilk defe olaraq VIII sinif üçün "Musiqi" dersliyinin çapını, "Sirvan" nəşriyyatı ise 32 mahnıdan ibaret "Neğmeli elifba" kitabının çapını sona çatdırıb. Hazırda "Seytanın yubileyi" (librettosu A.Babayevin) ve "Bazarkomun gül balası" (librettosu Y.Ekberovun və O.Recebovun) musiqili komediyaları üzerinde gergin yaradıcılıq axtarışları gedir. Eyni zamanda yeni mahnılar da yaranır.

Lakin bu günlerde rehberlik etdiyiniz qezetde "Öz en'eneləri olan tehsil ocağı" adlı müsahibeni oxuduqda çox teessüflendim ve qerara geldim ki, hemin yaziya öz münasibetimi bildirim. Hemin müsahibede Respublika İncesenet Gimnaziyasının artıq keçmiş direktoru olan Yusif Memmedov ona verilen birinci suali bele cavablandırıb:

– "Tam qetiyyetle qeyd ede bilerem ki, öz strukturuna görə respublikamızda yegane olan bele bir incesenet beşiyi evvelki rehberliyin dövründe son derece böhranlı hedde qelib çatmışdı... Tehsil ocağının divarları uçulub-sökülmüş, döşemesinde müxtelif oyuqlar olan sinif otaqları heqiqeten de her bir kesde teessüf hissi oyadırdı.

...Gimnaziyanın böyük zalının tavanından axan su ise zal ac qala yararsız hala salmışdı. Gimnaziyadaki tehsilden ise ümumiyyetle, söz açmağa deymezdi".

Bununla alaqedar onu demek istərdim ki, bu "yegane" strukturu Oqtay Recebov uzun iller müddetinde, şexsen özü böyük zehmet hesabına yaradıb ve Yusif Memmedovun bu strukturdan xeberi olmayıb.

Menim ona tehvil verdiyim gimnaziyanın heç bir divan sökülüb-dağılmış şeklinde olmamış, eksine, zelzeladen sonra bütün sökülmüş divarlar Abdi Şerifovun gösterişile berpa edilmişdi.

Gimnaziyanın böyük zalı ise dostum, keçmiş Türkiye sefirinin şexsen menim xahişime göre ayırdığı 14 min dollar vesaitle çox gözel te'mir edilmişdi (2001-ci ilin iyun-avqust aylarında). Lakin menim 2001-ci ilin oktyabrın 1-de işden azad olunmağımla alaqedar esas binanın dam örtüyünü te'mir elde bilmedik. Bu te'miri Yusif Memmedov etdirmeli idi. Ye'ni mehz onun sehlenkarlığı üzünden Türkiye sefirliyinin böyük zalda etdiyi esaslı te'mir işleri de sonradan yararsız hala düşdü.

Xatırladım ki, 2001-ci ilə qedər (9 il erzinde) gimnaziyada 42 beynelxalq müsabiqe laureatı yetişdirilib. Mene respublikada heç olmasa bir mekteb gösterin ki, orada bir neçe beynelxalq müsabiqe laureatı, diplomantı, yaxud beynelxalq sertifikatlar alan şagirdler olsun. Yusif Memmedovun tehsilden, telim-terbiye sisteminden, pedaqoqlıqadan, psixologiyadan heç bir xeberi olmadığı üçün onunla mübahise etmeye deymez. Bir il yeddi ay erzinde gimnaziyaya düzgün rehberlik ede bilmeyen bir adamın, ümumiyyetle, tehsilden danışmağa heç bir ixtiyarı yoxdur. Onun dilqeetine çatdırmaq istəyirem ki, keçmişde musiqi internatı, bu gün Respublika İncesenet Gimnaziyası adlanan bu qeyri-adi, tehsil naziri Misir Mərdanovun dediyi kimi, "unikal tedris ocağı" 1992-ci ilde deyil, 1990-cı ilde bele bir status almış ve bu tedris ocağının yaradılmasında Oqtay Recebovun az zehmeti olmamışdır. Gimnaziyada ixtisas ve ümumtehsil fenlerinin keyfiyyetinin artırılmasına elmi yanaşılmış ve mehz bunun neticesidir ki, kiçik bir dövrde rehberlik etdiyim tehsil ocağında böyük neticeler elde olunmuşdur. 2001-ci ilin may ayının 10-da prezident Heydar Əliyev gimnaziyanın IX sinif şagirdi Cahangir Məmmədova onun portretini çekdiyine görə teşəkkür mektubu yazmış, 1996-cı ilde Surxay Əsgerovun adı respublikamızda ilk defe olaraq "Qızıl kitaba" yazılmışdır.

1995-2001-ci iller erzinde üç beynelxalq ve dörd respublika elmi-praktik konfransı keçirilmiş ve bu tedbirlerde gimnaziya müellimlerinin, respublikamızın ve xarici ölkelerden gelen pedaqoq alimlerin ma'ruzeleri dinlenilmişdi. Hemin müddetde Qara Qarayevin, Fikrət Əmirovun, Tofiq Quliyevin, Cahangir Cahangirovun, Arif Melikovun musiqi ve pedaqoji-elmi yaradıcılıqlarına hesr edilmiş respublika miqyaslı elmi-praktik konfranslar konsertlerle davam etdirilmişdir. 1992-2000-ci iller erzinde M.Magomayev adına Azərbaycan Dövlet Filarmoniyasında və Bakı Musiqi Akademiyasında şagirdlerimiz defelerle simfonik orkestrlerin müşayietile konsertlerde iştirak etmişler. Bele tedbirleri heyata keçiren tedris müəssisesinde tehsilin seviyyesi nece aşağı ola biler? Yalan danışanda da ele danışmaq lazımdır ki, heç olmasa yalanın bir hissesi heqiqete yaxın olsun.

Hörmetli Yusif müellim! Axı tedbirleri siz yox, Oqtay Recebov keçirmişdir. Ona göre de sizin gimnaziyadaki tehsilin seviyyesine bu cür qiymet vermeyiniz bir daha bu sahede çox-çox uzaq olduğunuzu göstərir. Respublika İncesenet Gimnaziyasına meşhur incesenet xadimlerini de siz yox, Oqtay Recebov de'vet etmişdir.

Gimnaziyanın yataqxana korpusunun dam örtüyü de menim xahişimle "Sevron" neft şirketi terefinden tamamile deyişdirilmiş ve bu işde de sizin hec bir zehmetiniz olmamişdir.

Müsahibede qeyd olunur ki, 2001-2002-ci tedris ilinde gimnaziyanı bitiren 60 şagirdin yanından çoxu ali mekteblere daxil olub ve (guya) bu evvelki illerden çoxdur. Bu da ağ yalandır. İşlediyim müddetde gimnaziyanı bitirenlerin 80 faizinden çoxu ali mektəblərə, o cümlədən incesenet profilli ali mektəblərə qəbul olunmuşlar. Bu da bir daha sübut edir ki, Yusif Məmmədovun 1 il 7 ay direktor olduğu unikal tedris ocağının tarixinden de xeberi yoxdur. Çünki bir il erzinde mektebde tehsilin seviyyesini birden-birə artırmaq mümkün deyildir. Ye'ni tehsilin seviyyesinin artırılması üçün bir il deyil, iller lazımdır. Yusif Mammedov direktor olduğu müddetde menim yaratdığım müasir elmi-estetik te'lim sisteminden behrelenirdi ve ona ele gelirdi ki, bu nailiyyetleri onun özü qazanıb. Çox gözel el məsəli var: "Yuğlı ağacın kölgəsinde, ele bilir ki, öz kölgəsidir".

Mence, özgəsinin elde etdiyi nailiyyetleri öz adına çıxmaq çox pis keyfiyyetdir ve buna elmi dilde plagiatlıq deyirler.

İncesenet gimnaziyası ele bir tedris ocağıdır ki, 1992-2001-ci iller erzinde bu ocağa "Arşın mal alan", "Məşədi İbad", "Göyçək Fatma", "Xeyir və Şər" opera ve operettaları uşaqların ifasında film-tamaşa kimi çekilerek Azərbaycan Dövlet Televiziya ve Radio Komitəsinin qızıl fondunda daxil edilmişdir. Mehz bu dövrde gimnaziyada teatr, kino, xoreografiya sö'beləri yaradılmış, təsviri sənet sö'bəsinin ixtisasları artırılmaqla tetbiqi ve təsviri sənet sö'bəsinə çevrilmişdir. Hemin vaxtlar respublikamızda olan Türkiye dövletinin tehsil naziri gimnaziyaya gelerek görülen işleri çox yüksek qiymetlendirmişdir. O vaxtlar gimnaziyada uşaqların iştirakı ile müxtelif mezmunlu filmler çekilmiş ve demek olar ki, respublikamızda olan bütün telekanallarda gösterilmişdir. Bele oldu-ğu halda gimnaziyada guya tehsilin seviyyesinin aşağı olmasından danışmaq qerəzçilikden başqa bir şey deyildir.

Müsahibenin başlığı ile elaqedar öz fikrimi bildirmek istəyirem. "Öz en'eneləri olan tehsil ocağı" – ele tehsil ocağı ola biler ki, en'eneler on illerle hemin tedris ocağında yaradılaraq formalaşdırılıb inkişaf etdirilsin. Heqiqetan da İncesenet Gimnaziyasının artıq öz en'eneləri var. Lakin bu en'eneler on ile qedər burada dərdlər vəzifəsinde işlemiş, 20 ile yaxın eksperimentler aparmış Oqtay Recebova mexsusdur. Ye'ni demek istəyirem ki, bir il yeddi ayda en'ene yaratmaq qeyri-mümkündür.

Görünür, Y.Məmmədova ele gelir ki, o, gimnaziyada en'eneler yaratmışdır.

Çox teessüflər olsun ki, elm, tehsil, mədeniyyet sahesinde en'eneler yaradan, yenilikler ortaya çıxaran adamlar eser halda gördüyü işlerden uzaqlaşdırılır ve onların yerlerini diletantlar tuturlar.

Yusif Məmmədov da bele diletantlardan biridir. Hem musiqi, hem de pedaqoji sahede. Bele rehber kadrlarla biz haraya gedirik?

Hörmetle,

Oqtay RƏCƏBOV,
bestekar, pedaqoji elmler doktoru, emekdar müellim, Komsomol ve Yusif Məmmədəliyev adına mükafatlar laureatı.

AYRILIQ

Doğmalarını, dostlarını, sevgililərini uzaq diyarlara yola salanların halını başa düşün. Onlar bu halda yarımcan olurlar.

Uçduğun təyyarenin
Boylandım arxasınca.
Qeherlendim, gözlerim
Heç dolmamışdı bunca.

Kirpiyimi sıxmadım
Gözlerimden yaş axa.
Yaş qoymadı gözlerim
Bir de arxanca baxa.

Üreyim berk sıxıldı,
Qan sızdı dörd yanından.
Ele bil ki çıxırdı
Ruh öz xanımanından.

Geden nefesim idi,
Qalan onun boş yeri.
Keyimişdim, halsızdım,
Ölüydüm diri-diri...

Kimse tutdu qolumdan,
Baxdım ki bir haldayıq.
Fikrimiz təyyarede,
Özümüz vağzaldayıq.

O, mene bir telefon
Uzadıb, danış, dedi.
Əger varsa nömresi,
Yığmağa çalış, dedi.

Yığdım, ban birce yol
Eşidilsin o sesin.
Ses geldi ki keçmisen
Ehəte dairesin.

Sen menim ehətemden
Artıq kenarda idin.
Feqet haradaydınsa,
Ruhum da orda idi...

Mehemmed BAHARLI

GÜLƏRİN QARABAĞ HƏSRƏTİ

Qarabağ dərdi hamımızın can yanğısıdır
Güler balamızla təsadüfən tanış olmuşam. Yazdıqlarını heyacansız oxumaq, dinlamak mümkün deyil. Onun öz seslenmesinde "Qarabağ" se'rini eşitdim. Yer-göy başma fırlandı. Güllü Qarabağ-mızın dağları, dereleri, ormanları, diş göyneden bulaqları kinoleni təsviri kimi gözlerim önünde canlandı. Heyrət bir de ona meni büründü ki, Qarabağımız işğala ma'ruz qalanda Güllerin cemi bir yaşı olub. Bes hardan çözelenib onda doğma diyarə bu qedər istək, vurğunluq, can yanğısı? İndi sizlərə təqdim etdiyim hemin şe'ri eşitdikden sonra Güllerin hansı səbəbden bele qemli, kövrək, hesrətli şe'r yazmasının mentiqini anladım: gen, gen yaddaşı nəsildən-nəsle keçir. Bir de yadıma düşdü ki, Bakı şəhər 134 saylı orta mektebin 5-ci sinif şagirdi Gülər Novruzovanın Qarabağ- sevgisi, intizarı isə qan yaddaşındadır.

Telman Mehdizanlı

QARABAĞ

Qarabağım, dilber guşem,
Sevincim, sevgilim, naşem,
Sensiz heyatdan bezmişem,
Evim-eşiyim Qarabağ!
Doğma beşiyim Qarabağ!

Varlığın ömrə bezəkdi,
Torpağın güldü, çiçəkdi,
Neden felek tərse çəkdi?!
Evim-eşiyim Qarabağ!
Doğma beşiyim Qarabağ!

Evim-eşiyim Qarabağ!
Doğma beşiyim Qarabağ!

Üreyimde bir nisgil var
Ağlaram her gece zar-zar,
Yordu meni bu intizar,
Evim-eşiyim Qarabağ!
Doğma beşiyim Qarabağ!

Qalx ey xalqım,
qeyin yaraq,
Elimize silah alaq,
Azad olsun can Qarabağ!
Evim-eşiyim Qarabağ!
Doğma beşiyim Qarabağ!

Güler NOVRUZOVA

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN MÜƏLLİMLƏR İNSTİTUTU

aşağıda adları çeklilen kafedralarda boş olan vezifeleri tutmaq üçün müsabiqə E'LAN EDİR

Azərbaycan dili və ədəbiyyatın tedrisi metodikası kafedrası – dosent – 1 yer (Azərbaycan dilinin tedrisi metodikası ixtisası üzrə)

Fizika və riyaziyyat fenlerinin tedrisi metodikası kafedrası – müellim – 1 yer (riyaziyyatın tedrisi metodikası ixtisası üzrə).

İbtidai və məktəbəqədər tehsilin metodikası kafedrası – müellim – 2 yer (Ana dilinin tedrisi metodikası ixtisası üzrə)

Müsabiqə müddeti bu e'lan qezetde derc edildikden bir ay keçenedekdir. Senedleri tə'limata uyğun olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə bu ünvana təqdim etmek lazımdır.

Ünvan: Bakı şəhəri, K.Rəhimov küçəsi, 874-cü məhəllə

Telefon: 64-80-47, 64-40-76.

Təhsil şö'bələrinin, ali və orta məktəblərin, müəllim, tələbə və şagirdlərin nəzərinə

Telebatı nezere alaraq, Dövlet Torpaq ve Xeriteçəkmə Komitesinin Bakı Kartoqrafiya Fabrikinde hemin fabrikin istehsalı olan atlas, xerite, kontur xerite, iş defterleri ve s.-nin en ucuz qiymetlerle açıq satışı teşkil edilmişdir.

Siz burada istediyiniz mövzuda atlas, xerite və s. kartoqrafik mehsulları ala bilersiniz.

Bizim ünvanımız: Bakı şəhəri, Atatürk pr.70, Bakı Kartoqrafiya Fabriki.

Tel.: 62-88-21; 61-90-99; 61-90-04.

İTMİŞDİR

Azərbaycan Tibb İnstitutu tərəfinden 1975-ci ilde Zaidova Aide Ənver qızına verilen Г-I-020677 nömreli diplom itmişdir.

Salyan rayon Parça Xalac kend orta mektebini 2000-ci ilde bitirmiş Zülfüqarov Samir Sən'an oğluna verilen A-373908 nömreli attestat itmişdir.

Zaqatala rayon Danaqı kend 1 saylı orta mektebini 1999-cu ilde bitirmiş Murtuzova Ziyafet Aydın qızına verilen A-322771 nömreli attestat itmişdir.

Berde şəher 6 saylı orta mektebi 1988-ci ilde bitirmiş Əsgərov İlqar Sefer oğluna verilen A-456998 nömreli attestat itmişdir.

Bakıdakı 9 saylı peşe liseyi tərəfinden 2001-ci ilde Həsənov Ailəyy Sehiyyeddin oğluna verilen 082982 nömreli sürücülük şəhadetnaməsi itmişdir.

Ucar rayon Alpond kend 1 saylı mektebin IX sinfini 1997-ci ilde bitirmiş Hüseynova Lale Əmirhüseyn qızına verilen 484786 nömreli şəhadetnamə itmişdir.

Azərbaycan İnşaat Mühendisləri İnstitutu tərəfinden 1988-ci ilde Lütfəlibəyov Əliəşrəf Orxan oğluna verilen PB-030291 nömreli diplom itmişdir.

Əzizbəyov rayon 243 saylı orta mektebi 1992-ci ilde bitirmiş Kozakov Fyodr Vladimiroviçə verilen A-063438 nömreli attestat itmişdir.

Qaradağ rayon 233 saylı orta mektebi 2003-cü ilde bitirmiş Cahangirova Günel Famil qızına verilen A-658917 nömreli attestat itmişdir.

Balıq Sənaye Texnikumu tərəfinden 1971-ci ilde Ələsgərov Faiq Əlməhəmməd oğluna verilen 266640 nömreli diplom itmişdir.

Əli Bayramlı şəher 10 saylı orta mektebi 2002-ci ilde bitirmiş Nəsirov Vüsal Ağəli oğluna verilen 576176 nömreli attestat itmişdir.

Qubə şəher 1 saylı orta mektebi 2003-cü ilde bitirmiş Allahverdiyev Tural Əlesgər oğluna verilen A-657886 nömreli attestat itmişdir.

Bakıdakı 1 saylı Tibb Məktəbi tərəfinden 1998-ci ilde Nağıyeva Leman Tahir qızına verilen AB-II-032927 nömreli diplom itmişdir.

Azərbaycan Me'marlıq ve İnşaat Universiteti tərəfinden Asma Abdul Vahəba verilen H-170 nömreli şəhadetnamə itmişdir.

Gence şəher 18 saylı dəmiryol orta mektebini 1984-cü ilde bitirmiş Veliyev Əli Tağı oğluna verilen A-022570 nömreli attestat itmişdir.

Masallı rayon Bedelan kend orta mektebini 1995-ci ilde bitirmiş Bağırova Səmayə Tofiq qızına verilen 1021195 nömreli attestat evezi arayış itmişdir.

Azərbaycan Dillər İnstitutu tərəfinden 2002-ci ilde İkonnikova Diana Vladimirovnaya verilen tələbə bileti itmişdir.

Ağdam rayon Əliağalı kend orta mektebini 1992-ci ilde bitirmiş Hümbətov Əvez Hüseyn oğluna verilen 228525 nömreli attestat itmişdir.

Azərbaycan İnşaat Mühendisləri İnstitutu tərəfinden 1984-cü ilde Tanırverdiyev Aqil Qardaşxan oğluna verilen AB-I-078004 nömreli diplom itmişdir.

Qazax şəher 1 saylı orta mektebi 1994-cü ilde bitirmiş İsmayılova Aygün İlyas qızına verilen 121362 nömreli attestat itmişdir.

İDMAN

QADIN FUTBOLÇULARIN BÖYÜK UĞURU

Qadınlar arasında UEFA kuboku yarışları cemi üçüncü defedir keçirilir. Evvelki iki iliden fergli olaraq bu defe turnir iştirakçılarının sayı xeyli artıb. Bele ki, yarışlarda 30-dan artıq Avropa ölkesinin temsilçisi gücünü sınayır. Azərbaycanın idman şerefini bu mö'teber turnirde ölke çempionları, Bakının "Kömrükçü" komandası qoruyur. Bu günlerde hemyerilerimiz Belarusdan qayıtmışlar. Burada Avropa kubokunun qrup turnirinde iştirak eden qızlarımız böyük uğura imza atmışlar. İlk turda isveçrenin "Şvetsenbax" komandasını böyük fergle-5:0 hesabı ile meğlubiyyete uğradan temsilçilerimiz, ikinci turda Belarus çempionu "Bobruyanka"nın müqavimetini qıra bilmemişler. Evezinde bir gün sonra yarışların lideri, Yunanıstanın bir nömreli komandası "Aeqina" üzerindeki parter qelebe (3:0) Azərbaycanın futboluçu qızların UEFA kubokunun növbeti merhelesinde sekkiz en güclü komandası sırasına çıxarmışdır. Bakının "Neftçi" klubunun tanınmış oyunçularından biri olmuş Əbdüqeni Nurmemedovun başçılıq etdiyi komandamızın bu qelebeni elde etmesinde İrade Quliyeva, Aygün Qırxlarova, Kemale İbrahimova, Viktoriya Yefremova, Anna Şustova, Veronika Şumilina, Mehpare Əliyeva, Sebine Hüseynova, Tamilla Bayramova, Dilare Ceferova, Xeyale Əzizova, Aynur Əlməmmədova, Lyübov Vaneçkina, Yelena Semçenko, Olesya Kurseçkina ve başqalarının böyük emeyi olmuşdur.

KİŞİ FUTBOLÇULARIMIZ YENİ SINAQ QARŞISINDA

Sabah Azərbaycanın milli yığma komandasını Avropa çempionatı çerçivesinde ödüllü sınaq gözleyir. Bele ki, milliilerimiz qrup oyunlarında Finlandiya yığma komandası ile növbeti görüşlerini keçireceklər. Xatırladaq ki, öz meydançalarında keçirdikleri son oyunda hemyerilerimiz Serbiya ve Çernoqoriya (keçmiş Yuqoslaviya) komandasını meğlubiyyete uğradaraq bu qilte turnirinde ilk qelebe qazanmışdılar. Budur, indi daha bir qelebe qazanıb, turnir cedvelinin evvincı pilləsini terk etmek üçün yaxşı imkan yaranmışdır. Teessüf ki, oyun ölkenin bir nömreli arenası-Tofiq Behramov adına respublika stadionunda deyil, cemi 8 mine yaxın tamaşaçı tutan "Şefa" klubunun meydançasında keçiriləcək. Maliyye meselelerinde Respublika stadionunun rehberliyi ile razılığa gele bilmeyen AFFA resmilerinin bu qeran baş arenaya toplaşmaq ümidinde olan 32 min idman hevəskarlarını gözel bir tamaşadan mehrum edecek. Bir de xatırladaq ki, oyun sabah saat 19.00-da "Şefa" stadionunda keçiriləcək.

Komandanın texmini hey'eti belədir: Qapıçılar: Dmitri Kramerenko (OMİK Moskva, Rusiya), Cahangir Hesenzade ("Tavriya" Simferopol, Ukrayna); müdafiəçilər: Terlan Əhmədov, Asif Kerimov ("Qarabağ-Azersun" Ağdam), İlham Yedullayev ("Tavriya", Ukrayna), Ramiz Mammədov ("Peykan" İran), Mahir Şükürov, Avtandil Hacıyev ("Şefa" Bakı), Emin Quliyev ("Ukrayna"), Emin Ağayev ("Ximki" Moskva, Rusiya); yarımmüdafiəçilər: Zaur Tağızadə, Emin İmamaliyev, Ruslan Musayev (hamısı "Şefa" Bakı), Kamal Quliyev, ("Volin" Ukrayna), Mahmud Qurbanov ("Tavriya" Ukrayna), İsmayıl Məmmədov ("Neftçi" Bakı); hücumçular: Sen'an Qurbanov ("Şefa" Bakı), Qurban Qurbanov ("Volqar-Qazprom", Rusiya), Samir Eliyev, Ferruz İsmayılov (her ikisi "Volin" Ukrayna),Vaya, Samir Eliyev, ("Neftçi" Bakı), Aleksandr Səmədov, ("Spartak" dim Vasilyev ("Neftçi" Bakı), Aleksandr Səmədov, ("Spartak" Moskva, Rusiya), Samir Musayev ("Qarabağ-Azersun" Ağdam).

Akif ASLAN

ALLAH RƏHMƏT ELƏSİN!

Tehsil Nazirliyinin kollektivi naziriyin idare reisi İdris Mirzəyeve qardaşı

ƏYYUB KİŞİNİN

vefatı ile elaqedar derin hüznle başsağlığı verir.

"Azərbaycan müəllimi" qezetinin kollektivi Tehsil Nazirliyin idare reisi İdris Mirzəyeve qardaşı

ƏYYUB KİŞİNİN

vefatı ile elaqedar derin hüznle başsağlığı verir.

Telebe Qebulu üzre Dövlet Komissiyasının kollektivi

ELMİRƏ MANAFLININ

vefatı ile elaqedar mehumun ailesine derin hüznle başsağlığı verir.

Naxçıvan MR tehsil naziri Hemze Ceferov ve Nazirliyin kollektivi Respublika Tehsil Nazirliyinin idare reisi İdris Mirzəyeve qardaşı

ƏYYUBUN

vefatı ile elaqedar derin hüznle başsağlığı verirler.

Naxçıvan MR Tehsil Nazirliyinin kollektivi ve "Azərbaycan müəllimi" qezetinin yaradıcı hey'eti Naxçıvan MR tehsil naziri Hemze Ceferova ezizi

HÜSEYNİN

vaxtsız vefatı ile elaqedar derin hüznle başsağlığı verirler.

Bakı Şəher Mektəbdenkenar İş Mərkezinin kollektivi mərkezin direktoru Rafiq Kazımova, anası

MAYTAB XANIMIN

vefatı ile elaqedar derin hüznle başsağlığı verir.

Şikayət
maktubundan satırlar

QANUNSUZLUQ

May ayının evvellerinde Sabunçu Rayon Tehsil Şö'bəsinin qarşısına keyli mektəb rehberi toplaşmışdı. Şö'bənin müdiri Vahid Qurbanovun mene ilk suali bele oldu:

– Neçe müəlliminiz var?

– 35 nefer, – deye, cevab verdim.

– Her ay tehsil şö'bəsinde yaratdığımız fonda 35 ayının pul köçürmelisiniz. Bunun abune puluna, sığortaya, ayn-ayn tedris levazimatı üçün tutulan vesaite dexil yoxdur.

Qeti e'tirazımı bildirerek müdirin telebini yerine yetirmekden imtina etdim. Fikir meni götürmüşdü. Heç müdirin telebini yerine yetirmemek de olar?! Hamı yaxşı bilirdi ki, eger mektəb rehberlerinden biri müdirin "fond yaratmaq" teşebbüsüne qoşulmasa, way o mektəb direktorunun halına! Ve halına way olan da ele men oldum: Azərbaycanın ve keçmiş SSRİ-nin qabaqcıl müəllimi! xadimi, emek veteranı, ali kateqoriyalı müellim, pedaqoji mühazirelerine göre Sabunçu RTŞ-nı ve Bakı Baş Tehsil İdarəsinin fexri fermanlarını almış 2003-cü il may ayının 16-da basqa mektəbe dayişmek şertile öz erizesile 4 saylı mektəbin direktoru vezifesinden azad edilmiş

İkram SÜLEYMANLI,
"Qızıl qələm" mükafatı laureatı.

"GÜNLƏRİMİZ, AYLARIMIZ"

Yeni Nəsrlər

Böyük rus edebiyyatşünası V.Q.Belinskinin fikridir: "Tarix bütün xalqlarda var. Bu, birinde xronika, birinde efsane, birinde poema şeklinde olur". Bu baxımdan yanaşanda xalqımızın tarixinin hem xronika, hem efsane şeklinde, söz senetinin muneleri formasında yaşaması önemlidir. Bu tarix eslinde aynıyan yaddaqalan günler, hadiseler hesabına yaranıb. Hemin gün ve hadiseleri genc nesle, her bir Veten oğluna, qızına öyretmek onda tarixi mühəvelyə formalaşdırmaq demekdir. Bunun bir yolu tarixin bir tedris fenni kimi öyredilmesidirse, ikinci bir yolu hemin tarixi hadise mezmunlu poetik eserlerin yaradılmasıdır. "Azərbaycan" nəşriyyatının "Göyerçin"in kitabxanası seriyasından çapdan buraxdığı "Günlərimiz, aylarımız" kitabı bu baxımdan maraq doğurur. Burada toplanmış şe'rlerin müellifi "Göyerçin"in baş redaktoru, şair-alim Rafiq Yusifoğludur. Müellif "Böyük arzuya geden yol" kitabını yeniden işleyerek bu toplusu nəşr etdirmişdir: 64 şe'rin her biri müeyyen bir mövzuya hesr olunmuşdur. İlk şəhifelerde verilmiş şe'rlerden biri bele adlanır: "Allahım".

...Çəqmalanı haray
Göylere bülend olub.
Müqeddəs yurd yerimiz
Kafirlere kend olub.
...Yetişir kömeyimize
Bu qeder sebr, hövsele.
Allahım, yurdumuzu
Belalardan hifz ele!

Orucluq bayramı, Qurban bayramı, 1 Yanvar, Teze il, 20 Yanvar, Şəhidlər Günü, Gənclər Günü, Sevgililər Günü ve s. ile bağlı şe'rler kimi 8 Mart, 21 Mart, 31 Mart tarixi günləri ile bağlı poetik parçalar da onlıyıbdır.

Müellif kiçikyaşlıların qan yaddaşının tezelenmesi niyyetile Kelbecer, Laçın, Zəngilan ve s. yurd yerlerimizin işğalı ile bağlı eserler de qeleme atıb.

Konstitusiya Günü, Milli Dirçeliş Günü, Dünya Azərbaycanlılarının Hemre'ylik Günü mövzusunda şe'rler lakonik, poetizmi ile maraq doğurur. "Üçrəngli bayrağım" adlı poetik parçada oxuyuruq:

Bu üçrəngli bayrağım
Gözümün işığıdı.
Azadlıq yağışından
Doğan göy qurşağıdı.

Kiçikyaşlı oxucular üçün nezerde tutulmuş şe'rlerin topladığı kitabın rəssamı İlqar Tofiqoğludur. Orijinal illüstrasiyalı toplu müellifin uşaq edebiyyatı sahesinde uğuru sayılmalıdır.

Ş.ELNUR

SƏHƏR YEMƏYİNİ MƏKTƏBDƏ YEYƏNLƏR DAHA YAXŞI OXUYURLAR

Pedlatrlar uşaqların sehər yemeyinin vacibliyini daim qeyd edirler. Xüsusi tedqiqatlar neticesinde me'lum olmuşdur ki, mektəbde sehər yemeyi yeyen uşaqlar evde yeyenlere nisbeten yaxşı oxuyurlar. Demeli, uşaq ve yeniyetmelerin sehər yemeyini mektəbde yemeleri daha meqsedeuyğundur. Uşaqların rasionuna meyve, tərəvez ve gilemeyvelerin daxil edilmesi de onların sağlam böyülmeleri üçün mühüm şertdir.

ŞAGİRDLƏR NƏ QƏDƏR SU İÇMƏLİDİRLƏR?

Britaniya hekimlerinin apardıqları genişmiqyaslı tedqiqatlar sübut edib ki, hey gün 2 stakana qedər su içen uşaqlar dərslerinden yaxşı qiymetler alırlar.

Mütexessislər bunu onula izah edirler ki, orqanizmde meye kifayet qedər olmadıqda böyreklerin fəaliyyeti pozılır ve neticede sidik yollarında infeksiyalar emele gelir.

Tedqiqatlar neticesinde bele bir fakt da aşkar olunmuşdur: uşaqların teqriben yarısı mektəbde, ümumiyyetle, su içmir. Bunu nezere alaraq hekimler mektəblerin müdirlyetini uşaqları içmeli su ile te'min etmeye çağırırlar.

Jurnal səhifələrində

"AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI TƏDRİSİ", № 3

Azərbaycan dili ve edebiyyat müellimlerinin stolüstü vesaitleri olan elmi-metodik jurnalın yeni buraxılışın nömresi bu günlerde çapdan çıxmışdır. Jurnalın bu sayındakı materialler da hemişe olduğu kimi dil-edebiyyat müellimlerinin elmi-metodik hazırlığının artırmasına, nezeri bilklerinin genişləndirilmesine, hemkarlarının iş təcrübesini ile tanış olmalarına ünvanlanmışdır. Pedaqoji elmler namizedi, dosent Əsmer Bedəlovanın "Bütün müəllimlər şair olsa bilmez, amma bütün şairlər müəllimdir" sərlövheli meqalesi böyük şair S.Ə.Şirvaninin pedaqoji fikirlerine hesr olunmuşdur. Pedaqoji elmler namizedi Şamxeli Məmmədovun "Şabir obrazı bedii edebiyyatda" adlı yazısında ise qüdrətli satirik senetkarımız M.Ə.Sabir haqqında yazılan bedii eserler araşdırılmışdır.

Jurnalın "Metodika" bölmesinde daha bir neçe yazı verilmişdir. Bunlardan Bakı PKİ ve Yİ-nin metodisti, filologiya elmleri namizedi Aydın Paşayev ve Binaqedi RTŞ-ın metodisti Ulduz Əhmədzadenin "Fe'lil birləşmelerde sintaktik elaqeler dair", AMİ Sumqayıt filialının müellimi Zəyanə Qasımova "Aşıq yaradıcılığı öyredilirken", TPİ-nin dissertantı Şeyda Quliyevanın "Azərbaycan şifahi xalq edebiyyatı materiallarının tedrisinde edebi diyarşünaslıq işlerinden istifade" ve başqalarını misal göstermek olar. Müellimlerin öz iş təcrübeleri haqqında yazdıqları materialler da nömrede sütünlük teşkil edir.

Jurnalın bu sayında oxucular hemçinin "Nezeri qeydler", "Sinifdenxarici iş", "Yeni nəşrler" rubrikaları altında çap olunmuş materialларla, müxtelif sinifler üçre ifade metnleri ile de tanış ola bilerler.

Elman ƏBDÜLOV

BAŞ REDAKTOR : Valeh MİRZƏ

Redaksiyanın ve matbeenin Ünvanı: 370146, Bakı-146, Metbuat prospekti, 529-cu mehelle, redaksiya 9-cu mertebede yerleşir.
Qezet her hefteniin cümə günü çıxır.

Telefonlar: Qebul otağı ve faks - 39-20-77; baş redaktor müavinləri - 38-21-55; 32-19-63; şö'bələr: ümumi orta ve peşə tehsili müəssisələri - 38-66-05; orta ixtisas ve ali mektəbler - 38-51-41; mektəbəqədər ve mektəbdənkənar tərbiyə müəssisələri - 38-51-41; mədəniyyet ve sosial heyat - 39-07-98; beynəlxalq heyat, informasiya, şikayət ve mektublar - 39-64-00; müxbirler - 39-19-74; abune, yayım, reklam ve s'anət üzre direktor - 39-67-74; kompüter merkezi - 39-07-98;
bölge müxbirlərimiz - Naxçıvan MR üzre - H.Şəkərəliyev, tel.: 6-16-48; Gence-Qazax bölgesi üzre - F.Əbilov, Gence, tel.: - 55-96-93; Cəlilabad-Əli Bayramlı bölgesi üzre B.Bağırov, Cəlilabad, tel.: 3-31-61.

Təsisçiler:
Azərbaycan Respublikası Tehsil Nazirliyi ve "Azərbaycan müəllimi" qezetinin yaradıcı kollektivi. Yaradıcı kollektiv akademik M. Mendizadə adına ve "Dan ulduzu" respublika mükafatlarının laureatları.

Redaksiyaya daxil olan elyazmalar geri qaytarılmır.

TİRAJ 7926
SİFARİŞ 4129
Mes'ul nəşrlər üçün: Ə.DAŞDƏMİROV
Müəlliflərle redaksiyanın mövqeyi uyğun gelmeye bilər.
LİSENZİYA № 022327

BANK HESABIMIZ: "UNİBANK" Kommersiya Bankı" Açıq Səhmdar Cemiyyeti. Kodu: 505754, VÖEN: 1300106019. Müxbir hesabı: 01370100150311. S.W.I.F.T. Bik: MBNKAZ 22. "Azərbaycan müəllimi" qezeti redaksiyası. Hesab № 3308021, VÖEN: 1300123374.

Qezet "Azərbaycan müəllimi"nin kompüter merkezinde yığılır ve "Azərbaycan" nəşriyyatında çap olunur.